**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**MƏHKƏMƏ EKSPERTİZASI MƏRKƏZİ**

AZ 1000, Bakı şəhəri, Xaqani küçəsi 24

Tel.: (+994 12) 598-53-72 Faks: (+994 12) 493-18-52 Elektron poçt: info@expert.gov.az

"24" 05 2022-ci il №293

**"Finest" Tobacco" MMC-nin**
**baş direktoru Orxan İsmayılova**

E-mail: orxan.ismayilov@finesttobacco.az

**Hörmətli Orxan müəllim,**

Dövlət Gömrük Komitəsi tərəfindən müsadirə edilən siqaretlərin insan orqanizminə zərərli olub-olmamasının hansı normalar, metodika və cihazlar vasitəsilə müəyyən edilməsi ilə bağlı Ədliyyə Nazirliyinə daxil olmuş elektron müraciətinizə Məhkəmə Ekspertizası Mərkəzində baxılmışdır.

Bildirilir ki, siqaretlərin insan orqanizminə zərərli olub-olmamasının müəyyən edilməsi məhkəmə-bioloji ekspertizasının həll etdiyi məsələlər dairəsinə aid deyildir. Müraciətinizin bu hissəsi ilə bağlı Səhiyyə Nazirliyinin müvafiq qurumlarına müraciət etməyiniz tövsiyə olunur.

Müraciətinizin digər hissəsi ilə bağlı izah olunur ki, Mərkəzə təqdim edilmiş siqaretlərin miqdarından və növündən asılı olaraq prosessual qanunvericiliyin tələblərinə uyğun müvafiq protokol tərtib edilərək tədqiqat üçün nümunələr götürülməklə ekspertiza aparılır, nümunələrdən qalan hissəsi iş materialları və ekspert rəyi ilə birlikdə ekspertizanı təyin etmiş orqana və ya şəxsə geri qaytarılır.

Hörmətlə,

**Rəis müavini vəzifəsini icra edən** **Hüseyn Əlixanov**